**UOT:73/76.**

# CANLI İNSAN BAŞININ RƏSM EDİLMƏSİ ARDICILLIĞI

***Allahverdiyeva Raziyyə Qiyas qızı, Kazımova Səriyyə Eyvaz qızı***
***Gəncə Dövlət Unuversiteti***
*tunzalehuseyinova70@gmail.com*

**Xülasə:** *Portret rəsmləri bədii təlimdə mühüm mərhələ sayılır. Baxmayaraq ki, bu mərhələ ən çətin sahələrdən biridir, peşəkarlıq bacarıq və vərdişlərinin formalaşmasında çox böyük əhəmiyyətə malikdir. Portret rəsmi xarici oxşarlığın verilməsi ilə məhdudlaşmır. Başlıca vəzifə - təsvir olunan şəxsin xarakterik xüsusiyyətlərini, obraz həllini, daxili aləmini əks etdirməkdir.*

**Açar sözlər:** rəsm, portret, yaradıcılıq, bacarıq
**Ключевые слова:** рисунок, портрет, творчество, умение
**Key words:** drawinq, portrait, creativity , skill

Ali məktəblərdə “Rəsm” fənninin tədrisinin əsas məqsədi və vəzifəsi rəssamlıqla yanaşı, hərtərəfli biliyə malik müəllim hazırlamaqdır.

Rəsm metodu naturadan rəsmə əsaslanır. Buna görə də rəsm müəllimi həm rəssam, həm də dünyagörüşü geniş olan pedaqoq olmalıdır.

Rəsm təsviri sənət növlərinin əsasıdır. Buna görə rəsm istər dəzgah rəssamlığı və ya heykəltəraşlıq, istər qrafika, dekorativ-tətbiqi sənət növü və dizayn olsun, rəssamlıqda əsas rol oynayır. Arxitektura sahəsində də rəsm çəkməyin böyük əhəmiyyəti vardır.

Rəsm fənninin tədrisi və metodikası, əsasən, naturadan rəsmə əsaslanır. Rəsm kursu sadə natürmort çəkilişindən başlayır, insan fiqurunun təsvirində qurtarır. Naturadan rəsm zamanı tələbələr çəkdikləri rəsm ətrafında axtarışlar aparır, müqaisə edir və onu (rəsmi) təkmilləşdirir. Bu da tələbələrdə təfəkkürün, təxəyyülün və hafizənin inkişafına kömək edir.

Ümumtəhsil məktəblərinin gələcək təsviri incəsənət müəllimlərinin estetik tərbiyəsində və bədii pedaqoji təhsili sistemində rəsm əsas tədris fənnidir. Rəsm sərbəst tədris fənni kimi tələbələrin yaradıcılıq qabiliyyətinin inkişaf etdirilməsində, estetik zövqlərinin formalaşdırılmasında, həyat gerçəklərinin real təsviri bacarıq və vərdişlərinin əldə edilməsində geniş imkanlara malikdir.

Akademik rəsmin əsasında təsviri savadın öyrədilməsinin mühüm prinsipləri və realist təsvir bacarıq və vərdişlərinin formalaşdırılması durur. Bu xüsusiyyətlər ixtisaslı təsviri incəsənət müəllimi hazırlığı işində mühüm vasitələrdir.

Ümumtəhsil məktəblərinin təsviri incəsənət müəllimləri qarşısında şagirdlərin estetik tərbiyəsi, bədii zövqlərinin inkişafı, yaradıcılıq qabiliyyətinin formalaşdırılması kimi mühüm vəzifələr durur. Bütün bu vəzifələri ancaq həyat gerçəklərinin realist təsviri bacarıq və vərdişlərinə yiyələnməklə həll etmək olar.

Təsviri incəsənət müəllimi ancaq bu bacarıq və vərdişlərə malik olmaqla kifayətlənməməli, həm də realist rəsmin və yaradıcılıq işinin mahiyyətini, bədii obrazın formalaşmasıprossesini mükəmməl mənimsəməlidir.

Ümumtəhsil məktəblərinin gələcək təsviri incəsənət müəllimləri rəsm etməni həyat gerçəklərinin dərk edilməsinin bir nəticəsi kimi təsəvvür etməli, təsviri savadın verilməsində onun yerini bilməlidirlər. Bu baxımdan rəsm fənninin tədrisi zamanı portret rəsmlərinə geniş yer verilir. Tələbələr rəsm fənninin tədrisi zamanı portretin çəkilməsi ardıcıllığını dərindən öyrənməlidirlər.

İnsanın başının forması kəllə sümüyünün formasından əzələ və piy təbəqələrindən asılıdır. Başın quruluşunda fərqləndirici əlamətlər alın, boyun, göz, burun, ağız, qulaqlar, yanaqlar və çənəyə məxsusdur.

Alının forması əsasən alın sümüyünün formasından asılıdır. O hündür, alçaq, düz, qabarıq ola bilər. Alın forması həm də alın qabarcıqlarından asılıdır; əgər onlar bir-birindən aralıdırsa alın geniş görünür, əgər yaxındırsa – nazik.

Başın aşağı hissəsinin forması kəllə sümüyünün üz hissəsinin əzələ və sümüklərindən asılıdır. Sifəti təsvir etmək üçün zəruri olan 15 sümükdən ən əsasları aşağıdakılardır.

1. Üst çənə sümüyü
2. Alt çənə sümüyü
3. Burun sümüyü

Burun sümükləri, burunun formasını təyin edir. Əsas burun formalarına bunları misal göstərmək olar:

1. Düz burun
2. Donqar burun
3. Fındıq burun
4. Uzun burun

Burunlar xarakterinə, ölçüsünə, sümüklərin yerləşməsinə görə bir-birindən fərqlənir.

Üst dodaqlar formasına görə prizmatikdir. Onun burun altında yerləşən ensiz kənarları ağız küncünə tərəf əyilir və alt dodaqla birləşir. Üst dodağın alt dodaqla toxunma xətti ağızın orta xətti adlanır. Alt dodağın forması orta hissədən çəkilmiş qövs şəklindədir. 4 cür dodaq tipi vardır:

1. Qalın dodaq
2. Nazik dodaq
3. Orta dodaq
4. Qabarıq dodaq

Ağızın formasına dişlərin yerləşməsi təsir göstərir. Göz alması, göz yuvusında yerləşir, onun görünən ağ hissəsi-göz ağı, rəngli yumru hissəsi göz bəbəyi, lap ortadakı qara hissə isə - göz didəsi adlanır. Göz almasını alt və üst tərəfdən kipriklər əhatə edir. Kipriklərin birləşdiyi yerə göz küncləri deyilir. Burun tərəf olan künc daxili, o biri isə xarici künc hesab edilir.

Üst kipriklər aşağıdakılara nisbətən daha mütəhərrikdir. Gözün yuxarı hissəsində qaş yerləşir. Onun daxili hissəsinə qaşın başlanğıcı, xarici küncünə qaşın ucu deyilir. Qaşlar bir neçə cür olur:

1. Enli qaş
2. Nazik qaş
3. Uzun qaş
4. Qısa qaş
5. Düz qaş
6. Əyri qaş
7. Qövsvari qaş

Çənənin forması alt çənənin formasından, əzələ və piy təbəqəsindən asılıdır. Sifətin dairəsi almacıq sümüklərinin arasındakı məsafədən asılıdır. Məsafə böyük olduqda sifət enli, kiçik olduqda isə ensiz görünür. Sifət əzələləri nəinki üzün formasını müəyyən edir, həm də insanın müxtəlif hissələrini ifadə edir.

Başın rəsm edilmə ardıcıllığını, onun hissələrinin qarşılıqlı əlaqəsini və yerləşmələrini mənimsəmək üçün başın öndən və yandan sxematik rəsmlərini çəkmək lazımdır ki, naturadan rəsmə keçmək mümkün olsun.

Başın ümumi həcmi frontal vəziyyətdə təsvir olunarkən ovoidi (yumurta formalı dairə) xatırladır. Elə bir ovoidi ki, eni hündürlüyünün təxminən 4/5-nə bərabərdir. Ovoidin hündürlük və enini yarıya bölməklə sifətin mərkəz xətti alınır. Sonra ovoidin bütün hündürlüyü aşağıdan yuxarıya doğru $3\frac{1}{2}$ hissəyə bölünür. Aşağı hissə çənənin və dodaqların hündürlüyünü, orta hissə - burunun uzunluğu və qaşların yerini, yuxarı hissə - alınan hündürlüyünü və başın tüklü hissəsi ilə sərhəddi, yuxarıda qalan 1/7 hissəsi isə başın tüklü hissəsinin hündürlüyünü müəyyən edir.

Kəllənin mərkəz xəttini hündürlüyü boyunca 7 hissəyə bölərək 1/7-ni gözün mərkəz xətti boyunca mərkəzdən 3 dəfə ölçdükdə gözlərin daxili və xarici küncləri alınır. Göz almasını, kiprikləri, göz qapaqlarını, göz bəbəyi və qaşları qeyd etməklə, burun xəttində burunun qalınlığı, burun qanadları rəsm edilir.

Ağızı rəsm etmək üçün başın hündürlüyünün aşağı hissəsi 3 bərabər hissəyə bölünür: yuxarı hissə ağızın mərkəz xəttini, aşağı hissə çənənin alt dodaqla birləşən hissəni müəyyənləşdirir. Bundan sonra dodaqların qalınlığı müəyyən edilir. Ovoidin yuxarı hissəsində isə saç çəkilir.

Baş yandan təsvir edilərkən hündürlük və en bərabər götürülür. Alın, qaşların, gözlərin, burunun, ağız və çənənin yeri köməkçi xətlərlə qeyd edilir. Burunun eni adətən hündürlüyündə 2 dəfə yerləşir.

Bunu nəzərə alaraq insan başının çəkilməsi ardıcıllığına dərindən nəzər yetirək. Başın mərhələlərlə işlənməxi ardıcıllğını aşağıdakı qaydada göstərmər olar.

**I mərhələ**

Başın çəkilməsinə başlamazdan öncə naturaçını diqqətlə müşaiyət etmək lazımdır. Burada əsas mövqe modeli hərtərəfdən izləmək və modeli, xarakterini yadda saxlamaqdır. Baş və çiyinin vəziyyətini diqqətlə müşaiyət etmək, onların bir-biri ilə əlaqələrini müəyyənləşdirmək üçün çalışmaq lazımdır. Başın və boyunun duruşuna diqqət yetirin, canlışın onların oxu təyin olunsun. Bu oxların düzgünlüyü əsasən, plastik kompozit həlldən asılıdır.



**II mərhələ**

Çəkmə yerini təyin etdikdən sonra başın və boynunun ümumi kompozisiyalı yerləşdirilməsi ilə məşğul olmaq lazımdır. Kağız üzərində yerləşdirmə zamanı kağızı bölməyi, formanı format üzərində düzgün yerləşdirməni öyrənmək lazımdır. Başın 3/4 vəziyyətdə çəkilməsinin komponovkası zamanı üzün baxan səmtində boş yeri çox saxlamaq lazımdır. Başın üz hissəsini çəkərkən vərəqin ortasında yerləşdirilir. Baş və boyunu vərəqin şaquli ortasından bir az yuxarıda yerləşdirmək lazımdır. Vərəqin aşağı hissəsini yükləməyin, çünki bu kompozisiyalı balansı pozur. Baş və boyunun düzgün bölüşdürülməsi ilə rəssam qarşıya qoyulan tapşırığın həllinə uğurla nail olur.



**III mərhələ**

Növbəti mərhələ başın quruluşunun qurulma mərhələsidir. Bu mərhələdə ön hissələrin yeri müəyyənləşir. Bunun üçün yerləşdirmə zamanı ön hissədən çənəyə qədər frontal bir xətt çəkilir. Üzün orta profil xəttinin düzgün təyin olunması başın qurulması işində müsbət nəticə verir. Şaquli profil xəttinin təyinindən sonra, başın quruluşunda olan fərqləndirici əlamətlərə - üz, burun, ağız, qulağın çəkilməsinə keçirik.

Onların yerini düzgün təyin etmək üçün başın proporsiyalarını və aşağı – yuxarı hissələri ayıran göz xəttini təyin etmək vacibdir.



**IV mərhələ**

Başın hissələrinin dəqiqləşdirilməsinə keçərkən, əzələ və sümüklərin ümumi anatomik strukturunun qanunuyğunluğunu diqqətlə izləyin. Üzün çətin formasını əmələ gətirən əzələlər bu canlı sürətlərdə aydın ifadə olunur. Bütün mərhələlərin çəkilməsində əsas prinsip üzərində dayanmaq gərəklidir – ümumidən xüsusiyə, xüsusidən ümumiyə. Ondan başqa hissələrin formalarıyla ətraflı tanış olmaq, vaxtaşırı şəkilin ümumi quruluşuna qaytarmaq lazımdır. Belə yanaşma şəkilin bütövlüyünə ümumiləşdirilmiş və artıq detallaşma imkanı verir.



**V mərhələ**

Bu mərhələ başın forması və detallarının tonla üzə çıxardılmasını özündə cəmləyir. İşıq mənbəyinin obyektə yaxınlaşması zamanı işıqlanma dərəcəsi güclənəcək, əksinə uzaqlaşma zamanı isə zəifləyəcək.

İşıq mənbəyinə yaxın olan obyektlərin yerləşdirilməsində işıq və kölgə ziddiyəti uzaqlaşdırılmış obyektlərə nisbətən güclü olacaq. Bu qanunlara riayət etməklə rəsmdə işıq-kölgə prespektivini təqib edəcəksiniz. İşıq - gölgə ön planda arxaya nisbətən daha intensiv, ortada güclü, arxada qabağa nisbətən daha az olmalıdır. Beləliklə, işıq və gölgənin intensivliyi arxa planda obyektin bütün səthi üzrə dəyişir. Hər hansı obyekti uzaqlaşdıraraq və yaxınlaşdıraraq görəcəksiniz ki, işıq sərhəddi və işıq, və ya əksinə arasındakı sərhəd necə çətindir.

Rəsmin tonallığını işləyən zaman tələbələr məkan dərinliyinin ötürülməsində problemlə, yəni məkan planlarıyla qarşılaşırlar. Məkan planlarını saxlamaq üçün yuxarıda deyilən ton prespektivinə riayət etmək lazımdır. Arxa planın detallarının aydınlığı ön plana nisbətən az işlənmiş olmalıdır. Əgər arxa planın detalları irəli "çıxarsa" onları yumşaltmaq, önü isə gücləndirmək lazımdır. Bu rəsmin detallarının formasını aid olduğu kimi başın ümumi formasınada aiddir.



**VI mərhələ**

Bu mərhələ işlərin yekunlaşdırılması mərhələsi adlanır. Yekunu işləyərkən hər şeydən əvvəl formaların xarakterinin yoxlanılmasından başlayaraq, başın ölçülərinin və başın həcminin dəqiqləşdirilməsini, işıq və gölgənin nisbətlərinin güzgün ötürülməsini yoxlamaq lazımdır.

Bu mərhələ mürəkkəb və zəhmətli mərhələdir və şəklin sona çatdırılması üçün çox güc və zaman tələb edir.

Bu mərhələyə başlayaraq, beləliklə, ümumi formanı və başın xarakterini yoxlayın ki, heç bir xırdalıq olmadan ona bütöv baxılsın. Başın formasının bütövlük qavrayışı rəsmin aparılmasının bütün mərhələləri boyunca təqib edilməlidir. Şəkili bütövlüklə başlayırlar, bütövlüklə bitirirlər. İnsan başının rəsminin çəkilməsində detallar mühüm rol oynayır.

Sonuncu mərhələdə ümumi tonallığı yoxlayarkən, refleksləridə yoxlamağı unutmayın. Kifayət qədər tez - tez tələbələr refleks üzərində işləyərkən tonallıq dərəcəsini pozurlar, bununla şəkildə ümumi tonallığı və bütövlüyü pozaraq refleksin tonunun gücünü işığın gücünə bərabər edirlər.



***Ədəbiyyat***


1. Barçai Yene. İnsan anatomiyası İzd.-Eksmo, 2007
2. Qofrid Bammes Bədii plastik insan atomiyası – Drezden,1988
3. N.N. Rostovsev İnsan başının rəsm çəkilməsi - Dərslik, M., Təsviri incəsənət, 1989
4. N.Q.-mi. Tədris akademik şəklinin əsasları Dərslik M., İzd-vo Eksmo, 2006
5. N.N. Anisimov Rəsm çəkmənin əsasları, Ali məktəblər üçün dərslik M., Stroyizdat, 1974
6. A.M. Serov "Risunok" Moskva ,1975
7. A.Deyneka "Yçutes risovat" Moskva 1981


**ПОСЛЕДОВАТЕЛЬНОСТЬ РИСОВАНИЯ ГОЛОВЫ ЖИВОГО ЧЕЛОВЕКА**

***Аллахвердиева Разийя Гияс кызы, Казимова Сарийя Эйваз кызы***

***Резюме***

Портретная живопись - важный этап в художественном воспитании. Хотя эта стадия является одной из самых сложных областей, профессионализм играет огромную роль в формировании навыков и привычек. Портрет не ограничен формальным внешним сходством. Основная задача - отразить характер, образ и внутренний мир представляемого человека.

**THE SEQUENCE OF DRAWING THE HEAD OF A LIVING PERSON**

***Allahverdiyeva Raziyya Giyas., Kazimova Sariyya Eyvaz***

***Summary***

Portraiture is an important stage in art education. Although this stage is one of the most difficult areas, professionalism plays a huge role in shaping skills and habits. The portrait is not limited to formal external resemblance. The main task is to reflect the character, image and inner world of the person represented.

***Rəyçi:dosent Hüseynov Akif***
***Təsviri incəsənət kafedrasının 20 sentyabr 2022-ci il tarixli iclasın 01 saylı protokolu***
***Daxil olma tarixi 18 oktyabr 2022-ci il***